## *DİSTANT TƏHSİL*

UOT 378.018.43

***Hikmət Əbdül oğlu Əlizadə***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Bakı Dövlət Universiteti*

***Səbinə Vaqif qızı Rüstəmova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dillər Universiteti*

# DİSTANT TƏHSİLİN YARANMASI VƏ İNKİŞAF TARİXİ

***Hikmat Abdul Alizada***
*doctor of sciences in pedagogy, professor*
*Baku State University*

***Sabina Vaqif Rustamova***
*doctor of philosophy in pedagogy*
*Azerbaijan University of Languages*

# HISTORY OF EMERGENCY AND DEVELOPMENT OF DISTANCE EDUCATION

***Хикмет Абдул оглы Ализаде***
*доктор педагогических наук, профессор*
*Бакинский Государственный Университет*

***Сабина Вагиф кызы Рустамова***
*доктор философии по педагогике*
*Азербайджанский Университет Языков*

# ИСТОРИЯ ВОЗНИКНОВЕНИЯ И РАЗВИТИЯ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ

**Xülasə**: Məqalədə distant təhsilin yaranması və inkişaf tarixindən bəhs edilir. Göstərilir ki, distant təhsil XVIII əsrdə Kaleb Filips adlı bir şəxsin 1728-ci ildə Boston Gazette-də məktub mübadiləsi ilə ölkənin müxtəlif yerində yaşayan insanlara stenoqrafiya öyrətməyi təklif etməsi ilə təhsil sahəsində maraqlı innovasiyaya çevrilib. Sonralar radionun, televiziyanın, kompüter və internetin yaranması distant təhsilin imkanlarını daha da inkişaf etdirmişdi. Distant təhsil İngiltərə və ABŞ-da daha çox inkişaf etmişdi. Məqalədə hər iki ölkənin distant təhsil təcrübəsi və distant təhsilin prioritetləri açıqlanır.

***Açar sözlər:*** *distant təhsil, onlayn dərs, məktublaşma yolu ilə öyrətmə, radio və televiziya vasitəsi ilə öyrətmə, kompüter və internet yolu ilə öyrətmə, açıq universitet*

**Summary:** The article deals with the history of the emergence and development of distance education. It is noted that distance education became an interesting innovation in the field of education in the XVIII century, when Caleb Phillips offered to teach shorthand to people living in different parts of the country with an exchange of letters in the Boston Gazette in 1728. Later, the advent of radio, television, computers, and the Internet further expanded the possibilities of distance education. Distance education was more developed in England and the United States. The article describes the experience of distance education in both countries and the priorities of distance education.

***Keywords***: *distance education, online lessons, to teach with letter, to teach with radio and television, to teach with computer and internet, open university.*

**Резюме:** В статье рассматривается история возникновения и развития дистанционного образования. Отмечается, что дистанционное образование стало интересным нововведением в области образования в XVIII веке, когда Калеб Филлипс предложил обучать стенографии людей, живущих в разных частях страны, с обменом письмами в Boston Gazette в 1728 году. Позже, Появление радио, телевидения, компьютеров и Интернета еще больше расширило возможности дистанционного обучения. Дистанционное образование было более развито в Англии и США. В статье описывается опыт дистанционного обучения в обеих странах и приоритеты дистанционного образования.

***Ключевые слова***: *дистанционное обучение, онлайн-уроки, учить письмом, учить по радио и телевидению, учить с помощью компьютера и Интернета, открытый университет.*

**Giriş**. Dünyada əsrlərin süzgəcindən uğurla keçən elə təcrübələr var ki, onlar insanların fəaliyyətinin episentrində özünə yer tutmaq şərəfinə layiq görülmüşdür. Belə təcrübələrdən biri də təlim prosesinin təşkilidir. Hələ qədim insan bu prosesin aliliyini, zəruriliyini, cəmiyyət həyatının inkişafının ayrılmaz tərkib hissəsi olduğunu başa düşmüş, gördükləri, eşitdikləri, dərk etdikləri, öyrəndikləri, bildikləri, zəruri saydıqları nə varsa hamısını yeni nəslə öyrətməyə başlamışdı. Təlim prosesi zaman-zaman təcrübə topladıqca inkişaf etdi, onun məzmunu təkmilləşdi. İlk dövrlərdə bilik öyrətmə vəzifəsi yerinə yetirməyə başlayan bu proses sonradan yeni nəslə bacarıqlar aşılamaq, kamil, ideal, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirmək, tərbiyə etmək, inkişaf etdirmək, sosiallaşdırmaq və s. kimi vəzifələri öz üzərinə götürdü. Təsadüfi deyil ki, təhsilin tarixi təlim innovasiyaları ilə zəngindir.

Distant təhsilin yaranması təhsilin tarixində pedaqoji cəhətdən maraqlı olan innovasiyalardan biri XVIII əsrdə baş verdi. Kaleb Filips adlı bir şəxs 1728-ci ildə Boston Gazette-də məktub mübadiləsi ilə ölkənin müxtəlif yerində yaşayan insanlara stenoqrafiya öyrətməyi təklif etdi (1). Bu distant təhsilin yaranması idi. Kaleb Filipsin bu addımı məsafədən təhsilin mümkünlüyünü sübut etdi. Ona qədər təlim prosesi bir məkanda müəllimlə şagirdin qarşılıqlı münasibəti prosesində baş vermişdi. Keyleb Filips sübut etdi ki, müəllimlə şagird bir məkanda olmadan da təlim prosesini təşkil etmək olar. Beləliklə, XVIII əsrdə təhsilin tarixində yeni texnologiyaya imza atıldı və distant təhsil formasının əsası qoyuldu. Həmin dövrdə nə informasiya texnologiyaları, nə internet, nə də media vasitələri var idi. Əvəzində dövrün insanlararası əlaqə forması kimi poçt xidmətləri mövcud idi və Kaleb Filips bu xidmətlərdən istifadə edərək, distant təhsilin əsasını qoydu.

Məktublaşma yolu ilə öyrətmə - distant təhsilin başlanğıcına təkan verdi. "Hamıya hər şeyi öyrətmək" (Y.A. Komenski) ideyasından qidalanan maarifçilik hissləri qürur və vüqarla zirvədə duran ən ali hisslərindən biridir. İnsanı öyrətmək istəyi kiminsə sadəcə arzusu deyil, bu istəyin arxasında insana əsrlər boyu əldə edilmiş mədəniyyətin öyrədilməsi və bu yolla cəmiyyəti inkişaf etdirmək, insanların həyat fəaliyyətini daha yüksək səviyyəyə qaldırmaq durur. Bu yolda insanlar nələr fikirləşməyiblər? Onlar, necə deyərlər, "iynə ilə gör qazmağa" da razı olublar, təki insanlara nəyisə öyrətməyin yolunu tapa bilsinlər. Məktublaşma yolu ilə təhsil vermək istəyini başqa nə cür adlandırmaq olar?

Distant təhsilin inkişafında Guqlielmo Markoninin ixtirası Nobel mükafatı laureatı Guqlielmo Markoninin tədqiqatları radionun yaranmasına yol aşdı. Radionun yaranması insanlar tərəfindən möcüzə kimi qarşılandı. Amma maraqlıdır ki, insanlar radioya qulaq asıb həzz alanda maarifpərvər insanlar radionun təhsil imkanlarını "ölçüb-biçməyə" başladılar. Onları bir sual maraqlandırırdı: "Görəsən radio yolu ilə öyrətməni həyata keçirmək mümkündür?"

Onlar düşüncələrində yanılmadılar. Təhsil həyatında radio yolu ilə öyrətmə təcrübəsi öz praktik təcəssümünü tapdı və məsafədən təhsil vasitəsinə çevrildi. Radio yayımının ortaya çıxması nəticəsində federal hökumət Salt Layk Sitinin Müqəddəslər Universitetinə radio ilə təhsil lisenziyası verdi (2).

Radio öz sələfi ilə müqayisədə daha geniş təhsil imkanlarına malik idi. Lakin radionun məsafədən təhsil imkanlarını təhlil edəndə onun müxtəlif nöqsanlara malik olduğu məlum olur. Bu nöqsanlar sırasına aşağıdakıları daxil edilir: 1. Radionu dinləmək "intellektual passivliyi" inkişaf etdirir. 2. Radio bir tərəfli əlaqə vasitəsidir. 3. Radio ilə təlimatı "şagirdin fərdi tutumu"na uyğunlaşdırmaq çətindir. 4. Dinləyicinin

"üz ifadələri və jestləri" olmadığına görə radionu dinləmək üz-üzə rabitə ilə müqayisədə daha az təsirli olur. 5. Yayım vaxtlarını dərs cədvəllərinə uyğunlaşdırmaq çətindir. 6. Proqramlar maarifçilər tərəfindən deyil, radio sənətçiləri və maliyyə işçiləri tərəfindən hazırlanır. 7. Proqramlar demək olar ki, məktəb kurikulumuna əsaslanmır. 8. Müəllimlərin çoxu işdə daha çox saat çalışmaq məcburiyyətində qalır (3).

Distant təhsildə televiziya erası XX əsrin əvvəllərində "televiziya" sözü meydana gəldi. Yunanca uzaq mənasında işlənən "tele" və latınca görmək mənasında işlənən "visio" sözləri televiziya kəlməsinin yaranmasına rəvac verdi. Bu kəlmə uzağı görmək mənasını verirdi.

Televiziyanın kəşfi insanları özünə daha çox cəlb edə bildi. Bu gün televiziya vasitəsi ilə hətta internetə belə qoşulmaq olur. Əgər radio vasitəsi ilə informasiya əldə etmək daha məqsədəuyğun idisə, televiziya insanlara informasiya ilə yanaşı daha maraqlı verilişlər təqdim etmək imkanına malikdir.

Əlbəttə ki, insanlar televiziyanın təhsil imkanlarını yoxlanmalı idilər, yoxladılar da. Nəticədə təhsilin tarixində bu istiqamətdə aşağıdakı təcrübələr toplandı: 1. İova Dövlət Universiteti təhsil televiziyasını yaratmaq üçün 1945-ci ildə Federal Rabitə Komissiyasına müraciət etdi və lisenziya aldı. 1950-ci ildə televiziya ilə təhsil proqramlarına başladığı üçün dünyada ilk təhsil televiziyası yayımçısı oldu (Saettler, 1990). 2. 1953-cü ildə Hyuston Universiteti kredit üçün televiziya kollec dərsləri təklif etməyə başladı. 3. 1965-ci ildə Wisconsin Universiteti telefon vasitələrindən istifadə edərək həkimlər üçün əyalət səviyyəsində təhsil proqramına başladı. 4. 1968-ci ilə qədər Nebraska-Linkoln Universitetinin Müstəqil Təhsil Liseyindən məsafəli təhsil yolu ilə akkreditə olunmuş lisey diplomu əldə etmək mümkün oldu. 5. 1969-cı ildə İngiltərədə "Britaniya açıq Universiteti" quruldu. 6. 1976-cı ildə kampusu olmayan ilk "virtual kollec" fəaliyyətə başladı. (5; 6).

Radio ilə müqayisədə televiziya yolu ilə öyrətmə müəyyən üstünlüklərə malikdir. Televiziya yolu ilə öyrətmə təlimin ənənəvi formada təşkilinə daha yaxındır.

Həm radio, həm də televiziya ilə öyrətmənin üstün cəhətləri də var, çatışmazlıqları da. Həm radio, həm də televiziya yolu ilə öyrətmə birtərəfli prosesdir, burada əks əlaqə yoxdur. Məktublaşma yolu ilə öyrətmədə heç olmasa, məktubla göndərilən məlumatı öyrəndikdən sonra tapşırıqları həll edib, cavab məktubu ilə həmin tapşırıqların həll edilmiş forması müəllimə geri göndərilirdi. Bu vasitə ilə əks əlaqə yaradılır və öyrənənin bilikləri qiymətləndirilirdi.

Radio və televiziya yolu ilə öyrənmədə təhsilalanların bilikləri necə mənimsəməsini, ümumiyyətlə, "dərslərdə iştirak etmələrini" müəyyən etmək mümkün deyil. Radio və televiziyada əks əlaqənin olmaması bu vasitələrdən yalnız könüllü olaraq öyrənmək istəyənlərə dərs keçmək imkanı verir.

Bu gün mətni kompüterdə yığmaq imkanı genişdir və çap olunmuş materialların elektron poçt vasitəsi ilə göndərilməsi yolundan istifadə edilir. Bundan əlavə, öyrətmə multimedia sistemləri ilə mətn audio, video materialların insanlara və qruplara çatdırılmasına da imkan verir. Təbii ki, bu yanaşmadan daha çox distant təhsilə üstünlük verən açıq universitetlərdə istifadə olunur. Bu universitetlərdə tələbələrə təqdim olunan materiallar mütəxəssislər tərəfindən ali məktəbin kurikulumuna əsasən hazırlanır.

Tələbələrlə əks əlaqə yaradılmasına, onların bilikləri necə mənimsəməsinin yoxlanılmasına xüsusi diqqət yetirilir. İnformasiya texnologiyalarının inkişafı bu yoldan istifadə imkanlarını sadələşdirir. Çap materiallarının belə təqdim olunması asinxron öyrənmə kimi mənalandırılır. Ədəbiyyatda çap materiallarının təqdim edilməsi yolu ilə öyrətmə distant təhsilin ayrı inkişaf mərhələsi kimi ayırd edilir (7) və qeyd edildiyi kimi çap materialları ilk əvvəl məktublaşma yolu ilə, indi isə komputer və internet vasitəsi ilə öyrənənlərə çatdırılır və bu gün onlayn dərslərin bir hissəsinə çevrilmişdir. Bu yol ilə öyrətmə müasir dövrdə necə deyərlər, daha da "qol-qanad açaraq" yeni formalarda özünü göstərir.

Son illərdə yeni formada hazırlanan kitablar buna nümunə kimi göstərilə bilər.

Əgər internetin inkişafının ilkin mərhələsində distant təhsildə asinxron əlaqə formaları insanları heyrətləndirirdisə, informasiya texnologiyalarının inkişafı sinxron təhsilin yaranmasına rəvac verdi. Beləliklə, internet və informasiya texnologiyalarının təkmilləşməsi onlayn təlim mühitinin yaranmasına səbəb oldu. Elektron auditoriyalar əmələ gəldi. Bu həm müəllimlər,

həm də şagirdlər (tələbələr) üçün daha əlçatan oldu (11).

İngiltərədə Açıq Universitetdə fəaliyyət göstərən Təhsil Mərkəzləri məsafədən təhsilin həm nəzəri, həm də təcrübi ədəbiyyat bazalarına malikdir. Burada dünyada məsafəli təhsillə bağlı tədqiqat işləri, qiymətləndirmə hesabatları, kurs modulları, kitablar, jurnal məqalələri və müvəqqəti materialların hamısının siyahıları mövcuddur (12).

Açıq təhsilin coğrafiyasının getdikcə böyüməsi bu təhsil formasının ən yaxın gələcəkdə təhsil müəssisələrinin fəaliyyətinin əsas hissəsini təşkil edəcəyi qənaətinə gəlmək imkanı verir. Açıq təhsilə marağın artma səbəblərindən biri də təhsilalanlara nəyin, nə vaxt və harada öyrəniləcəyi ilə seçim azadlığının verilməsidir. Təhsilin bu formasında təhsil alanlar ənənəvi təhsildə təhsil alanlardan daha motivasiyalı olması ilə fərqlənir.

ABŞ-da distant təhsil Amerika Birləşmiş Ştatlarında da məsafədən təhsil sürətlə inkişaf edir. Bunun əsas səbəbi ölkədə təhsilin əhəmiyyətinin daha yüksək səviyyədə dərk edilməsi nəticəsində daha çox insanın təhsil almağa həvəsli olmasıdır. İnsanların həyat fəaliyyətində rəqabətin çox olması, ömür boyu təhsil almağın zəruriliyinin dərk edilməsi, cəmiyyətin sosial həyatında dəyişikliklərin baş verməsi, elm və texnikanın inkişaf sürəti, insanlarda yaradıcılıq keyfiyyətlərinin inkişafına ehtiyacın artması bu həvəsi motivləşdirən əsas amillərdir. Ali təhsilini bitirmiş hər hansı bir gənc oğlan və qız istehsalatda həmin elmi baza ilə bir neçə il uğurlu fəaliyyət göstərə bilir.

Məsafədən təhsil təcrübəsində İnternetdən istifadə edilməsi XXI əsrin əvvəllərindən ABŞ-da distant təhsilin inkişafını sürətləndirdi. Bu inkişaf yeni postsənaye iqtisadiyyatının ortaya çıxmasını şərtləndirdi. Məsafədən təhsilin gələcəyi, əsas nəzəri konsepsiyalar qəbul edilərək özünün post-sənaye mühitinə uyğunlaşdırma qabiliyyətini və qurumların tədris xərclərini azaltmaq imkanını özündə ehtiva edir. Nəticə 2020-ci ildə pandemiyanın elan edilməsi onlayn dərsləri aktuallaşdırdı. Onlayn dərslər distant təhsil deyil, amma onun bir növüdür. Onlayn dərslər zamanı bu dərslərlə müqayisədə təhsilin ənənəvi təşkili formasının böyük üstünlüklərə malik olması təsdiq olundu. Lakin distant təhsilin də öz prioritetləri var. Məsələn, distant təhsil fövqəladə hallarda (pandemiya dövründə və s.), təhsilin alma imkanları məhdud olan uşaqların təhsil almasında (sağlamlıq imkanları məhdud olan, müxtəlif səbəblərdən təhsil almaq üçün yaşayış yerini tərk edə bilməyənlər və s.), hər hansı müəssisədə işləyərkən ixtisası artırma zərurəti yarandıqda, ömür boyu təhsilin reallaşmasında və s. geniş imkanlara malikdir. Bundan əlavə, xəstə olduğu üçün dərsə gələ bilməyən şagirdlin geri qalmaması və yaxud dərsdən sonra uşaqlarla əlavə məşğələ və fakültativ məşğələ keçirilməsi üçün də distant təhsilin imkanlarından yararlanmaq mümkündür. Hətta tələbələrin imtahan qabağı məsləhət saatlarının təşkilində də onlayn əlaqədən istifadə etmək olar. Onlayn əlaqə bu imkanları genişləndirir. Məişət həyatımızda onlayn ünsiyyət və əlaqələr genişləndiyi kimi, təhsil mühitində onlayn əlaqələr genişlənir. Düşünürük ki, bu imkanlardan düzgün istifadə edilməsi təhsilalanlarin daha keyfiyyətli bilik və bacarıqlara yiyələnməsi üçün geniş üfiqlər açır.

**Problemin aktuallığı**. Distant təhsilin yaranması və inkişafı tarixinə münasibətin bildirilməsi aktuallıq daşıyır.

**Problemin yeniliyi**. Distant təhsilin yaranması və inkişafı tarixi diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılardan ötrü faydalı olacaqdır.

## Ədəbiyyat


1. https://www.saylor.org/2018/09/blog-a-compendious-history-of-distance-education/
2. https://books.google.az/books?id=dU8KAAAAQBAJ&pg=PA29&lpg=PA29&dq=Salt+Lake+City+Saints+University+its+first+educational+radio+license&source=bl&
3. 12-2011.pdf 4.sevdaulutau. wordpress.com; /televiziyanın yaranma tarixi/
4. https://thebestschools.org/magazine/online-education-history/.
5. https://www.worldwidelearn.com/education-articles/history-of-distancelearning.html)
6. https://www.saide.org.za/resources/Conf%202000/3%20Dr%20MA%20Ravhudzul o%20%20%20%20-%20Univ%20of%20Venda.pdf

7. https://kayzen.az/blog/texnologiya/17738/komp%C3%BCtertexnikas%C4%B1n%C4%B1n-yaranma-tarixi-v%C9%99-inki%C5%9Fafm%C9%99rh%C9%99l%C9%99l%C9%99ri.html
8. kayzen.az/bloq/texnoloqiya/17738 10.azens.az › news
9. https://www.open.ac.uk/library/digital-archive/exhibition/177/theme/7/page/1
10..https://en.wikipedia.org/wiki/Open_University
11..http://members.aect.org/edtech/ed1/13/13-02.html

**E-mail:** hikmet56@gmail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls. dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 04.10.2021